



# Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır

## *İqtisadi əlaqələrin artırılması xalqlarımızın rifahının yüksəlməsinə xidmət edir*

**"Biz Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzərində işləyirik... Bu, ikitərəfli əməkdaşlığımıza mühüm töhfə olacaqdır. Biz Şərq Tərəfdaşlığı proqramı çərçivəsində ikitərəfli qaydada işləyirik. Avropa İttifaqı Azərbaycan üçün əsas ticarət tərəfdaşıdır. Planlarımızın icrası əlbəttə ki, ticari dövriyyəni xalqlarımızın rifahı naminə artıracaq". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanma mərasimindən sonra mətbuata bəyanatında bildirib.**

Müstəqillik əldə etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş gənc Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin uğurlu həlli onun beynəlxalq aləmdəki mövqeyi, ayrı-ayrı ölkələrlə milli dövlət mənafelərinə cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiya prosesinin intensivliyi ilə sıx bağlıdır. Bu mənada, Azərbaycanın beynəlxalq əlaqələr sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşdırılmasında aparıcı rol oynayan dövlətlərlə, o cümlədən siyasi çəkisinə və iqtisadi potensialına görə beynəlxalq aləmdə özünəməxsus yer tutan Qərbi Avropa ölkələri ilə qarşılıqlı münasibətlərin tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir.

1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Avropa İttifaqı ilə əlaqələri indiyədək iqtisadi, siyasi islahatlara dəstək, Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizinin yaradılması, infrastrukturun inkişafı və s. kimi müxtəlif çərçivələrdə inkişaf etdirmişdir.

1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (1999-cu ildə qüvvəyə minmişdir) siyasi dialoq, ticarət, sərmayə, qanunvericilik, elm və mədəniyyət sahəsində əməkdaşlığı əhatə edir. 1998-ci ildə Avropa İttifaqı Azərbaycana xüsusi elçisini təyin etmiş, 2000-ci ildə Azərbaycanın Aİ yanında nümayəndəliyi təsis olunmuşdur. 2003-cü ilin iyul ayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi təyin edilib.

2004-cü ildə Azərbaycan Avropa Qonşuluq Siyasəti, 2009-cu ildə isə onun Şərq istiqaməti üzrə çoxtərəfli əməkdaşlıq formatı olan Şərq Tərəfdaşlığı proqramına daxil edilmişdir. Ölkəmiz Avropa Qonşuluq Siyasəti proqramı çərçivəsində özünün bir çox iqtisadi, siyasi, hüquqi və inzibati islahatlarını həyata keçirmək imkanı qazanmış və bu məqsədlə Avropa İttifaqının maliyyə-texniki dəstəyindən bəhrələnmişdir. Lakin istər AQS, istərsə də ŞT Azərbaycan üçün Avropa İttifaqına üzvlük və ya hər hansı bir formada təhlükəsizlik zəmanəti vəd etmədiyindən Azərbaycan Assosiasiya Sazişini imzalamamış və Strateji Tərəfdaşlıq sazişi kimi yeni bir hərtərəfli saziş üçün Aİ ilə danışıqlara başlamışdır.

Avropa İttifaqı üçün Azərbaycan regionda, eləcə də Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı proqramları çərçivəsində strateji cəhətdən mühüm əhəmiyyətə malikdir. Birincisi, Azərbaycan Avropa İttifaqı və üzv ölkələrin enerji şirkətləri ilə genişmiqyaslı enerji və nəqliyyat layihələri həyata keçirir. İkincisi, Azərbaycan tranzit mövqeyinə görə Aİ-nin Şərq-Qərb nəqliyyat dəhlizi konsepsiyasının əsas ölkələrindən biridir. Üçüncüsü, Azərbaycan islam ölkəsi olmasına baxmayaraq, dünyəviliyini qoruyub saxlayır və əhalisi tolerantdır.

Azərbaycanın regiondakı tranzit mövqeyi, Avropa və Asiyanın quru və hava nəqliyyatı yollarının kəsişməsində yerləşməsi, eləcə də Asiyanın nəqliyyat qovşağı rolunu oynaması ölkəni Aİ üçün cəlbedici edən faktorlardır.

Bu gün Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. 2021-ci ildə Aİ ilə ölkəmiz arasında ticarət dövriyyəsi 15 milyard dollardan çox olub. Bu ilin yanvar-aprel aylarında Azərbaycanın ixracının 64 faizi Aİ ilə reallaşıb. İxracın həcmi 7 milyard 558 milyon 482.56 min dollar təşkil edib ki, bunun da 4,3 milyard dolları yalnız İtaliyaya neft ixracı ilə bağlıdır. İdxalımızda isə Aİ-nin payı 16 faiz -638 milyon 963.83 min dollardır. Son onillikdə Avropa şirkətləri Azərbaycan iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə yatırıb.

Bakı Avropa İttifaqı ilə münasibətlərə həmişə xüsusi diqqət yetirib. Dövlətimizin başçısı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə müntəzəm dialoq aparır. Ötən il iyunun 18-də Prezident İlham Əliyevin Şarl Mişellə birgə keçirdiyi mətbuat konfransında qeyd etdiyi kimi, Aİ ölkəmiz üçün yaxın tərəfdaşdır: "Biz uzun illərdir müxtəlif sahələrdə işləyirik. Gündəlik çox genişdir və bizim güclü siyasi təmaslarımız əlbəttə ki, əməkdaşlığımızın şaxələndirilməsi üçün çox yaxşı təməl yaradır. Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Ticarətimizin demək olar ki, 40 faizi Avropa İttifaqı ilə aparılır. Ötənilki ticarət dövriyyəsi demək olar ki, 9,5 milyard ABŞ dolları idi. Azərbaycanın Avropa İttifaqına üzv dövlətlərlə ixracının həcmi 6,8 milyard ABŞ dolları təşkil edir. Üzv dövlətlərdən 1700-dən çox şirkət Azərbaycanda fəaliyyət göstərir. Bu, həmçinin bizim iqtisadi fəaliyyətimizin miqyasını nümayiş etdirir. Biz üzv dövlətlərlə ikitərəfli əlaqələrdə çox fəalıq. Azərbaycan Avropa İttifaqının 9 üzv dövləti ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb və ya qəbul edib. Beləliklə, Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanı strateji tərəfdaş hesab edir".

Prezidentin qeyd etdiyi kimi, Azərbaycan Avropa İttifaqına üzv dövlətlərlə əməkdaşlığa xüsusi önəm verir. Bu mənada nəinki Avropanın, dünyanın da siyasi, iqtisadi, mədəni həyatında mühüm rol oynayan Fransa ilə əlaqələr ölkəmiz üçün də əhəmiyyətlidir. Azərbaycan 2009-cu ildə daxil olduğu Şərq Tərəfdaşlığı proqramı çərçivəsində Avropa ilə fəal dialoq aparmağa başlayıb ki, bu işdə də Fransa xüsusi önəm kəsb edir. Hazırda qloballaşan dünyanın mühüm güc və siyasət mərkəzlərindən biri olan Fransanın Azərbaycanla əməkdaşlığının daha da dərinləşməsinə, respublikamızın Avropa strukturlarına dinamik inteqrasiyasına marağı daha da artıb. Son illərdə iki ölkə arasındakı ticarət dövriyyəsində də artım var. Azərbaycanda həm səhmdarlar, həm də tədarükçülər qismində 50-dən çox fransız şirkəti fəaliyyət göstərir. Fransanın Cənubi Qafqazda əsas ticarət tərəfdaşı olan Azərbaycan ilə telekommunikasiya, şəhərsalma, nəqliyyat, yüngül sənaye, şərabçılıq və digər sahələrdə əməkdaşlığı getdikcə möhkəmlənir.

Avropa İttifaqının digər aparıcı bir dövləti olan İtaliya da Azərbaycanın ən yaxın tərəfdaşlarından biridir. İki ölkə arasında münasibətlər yüksək səviyyədədir. İtaliya Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənəd imzaladığı Avropa İttifaqına üzv olan 9 dövlətdən biridir. İtaliya həm də Azərbaycanın əsas ticari tərəfdaşıdır.

Avropa İttifaqı ilə ikitərəfli əməkdaşlıq, eləcə də Şərq Tərəfdaşlığı proqramı çərçivəsində uğurla inkişaf edir. Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenlə dövlət başçısının görüşündə də bu barədə qeyd edilmişdir. Ursula Fon der Lyayen demişdir: "Avropa İttifaqı Azərbaycanın ən iri ticarət tərəfdaşı və əsas ixrac bazarıdır. Həmçinin sərmayə qoyuluşu baxımından da Azərbaycan üçün ən vacib mənbələrdən biridir. Biz bunu genişləndirmək istəyirik. Biz 2024-cü ilə qədər 60 milyon avro həcmində Avropa İttifaqı sərmayəsini Azərbaycana yatıracağıq, iqtisadi və sərmayə planı 2 milyard avroya qədər əlavə sərmayənin səfərbər edilməsi potensialına malikdir".

Azərbaycanın Avropanın enerji təhlükəsizliyi üçün önəmi getdikcə artır. Cənub Qaz Dəhlizi Avropa üçün əsl enerji təhlükəsizliyi layihəsidir. Azərbaycanın Avropa İttifaqı ilə enerji sektorunda gələcək əməkdaşlığı üçün isə imkanları kifayət qədər genişdir. Bütün bunlar Azərbaycanla Avropa İttifaqı arasında ticarət dövriyyəsinin artırılmasına zəmin yaradacaqdır.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika.- 2022- ci il.- 30 iyul.- S. 4.